# Azərbaycanın gələcək inkişaf konsepsiyası



***Prezident İlham Əliyev "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Proqramını təsdiqləyərək qarşıdakı 10 ildə ölkəmizin inkişafı üçün əsas prioritetləri müəyyənləşdirdi. Bu inkişaf konsepsiyası kimi milli maraqlarımızın həyata keçirilməsi üçün daha bir ideal yol xəritəsidir. Bu sözləri "Demokratik Azərbaycan naminə" İctimai Birliyinin sədri, Elməddin Behbud dedi.***

E. Behbud qeyd etdi ki, Azərbaycan 44 günlük müharibədən qalib ayrıldı. 30 illik işğala son qoydu. Artıq regionda yeni reallıqlar yaranmışdır. Azərbaycan hərbi cəhətdən Cənubi Qafqazın lider ölkəsi olduğu kimi, iqtisadiyyatında da liderliyini qoruyub saxlamalıdır. Məhz bu baxımdan, ölkəmiz öz inkişafını bu reallıqlar fonunda davam etdirərək, mili maraqları, yeni reallıqları nəzərə alaraq və müasir dövr milli iqtisadiyyatımızı yeni strateji vəzifələr əsasında müəyyənləşdirir.

Dövlət başçısının "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncamı gələcək inkişaf strategiyamızı müəyyənləşdirməklə yanaşı, həm də əhalinin rifah halının yüksəldilməsini də nəzərdə tutur. Sərəncamda müstəqil Azərbaycanın iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşamaqda olduğu vurğulanır. Qeyd edilir ki, bu dövrdə ölkədə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin edib. Son 17 ildə dinamik inkişaf əsasında ölkə iqtisadiyyatının həcmi 3 dəfədən çox böyüyüb, güclü sosial-iqtisadi infrastruktur yaradılıb, pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsi əhəmiyyətli azalıb. Mövcud maliyyə imkanları tarixi maksimuma çatdırılıb və ölkə yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənib. Elə bu baxımdan, artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. Bütün bunlar asanlıqla başa gəlməyib. Çox çətin və şərəfli yol keçmişik. Bu statusumuzu qorumaq gələcəyə daha güclü, daha inkişafla çıxmaq üçün bu sərəncamın əhəmiyyəti böyükdür.

E. Behbud sonda əlavə etdi ki, müharibədən qalib və eyni zamanda, sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi bu gün Azərbaycanda inkişafın davamlılığı üçün bütün zəruri potensial mövcuddur. Yeni inkişaf mərhələsində ən önəmli məsələlərdən biri – Böyük Qayıdış sayəsində soydaşlarımızın öz tarixi torpaqlarında dayanıqlı məskunlaşması təmin ediləcək. Təbii ki, dövlət yeni ərazilərdə əhalinin yüksək rifahının təmin olunması istiqamətində kompleks tədbirlər həyata keçirəcək.

***Anar ƏLİYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 9 fevral.- S.3.